İctimai-siyasi qəzet

QƏLƏBƏ

TƏSİSÇİLƏR: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ REDAKSİYANIN JURNALİST KOLLEKTİVİ

19 mart 2021-ci il, № 7-8 (8.597) | Qəzet 21 fevral 1924-cü ildən çap olunur | qelebesalyan@gmail.com

İlham Əliyevin zəfər yolu



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar

Xəbər verildiyi kimi, martın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.

AZƏRTAC xəbər verir ki,

Əvvəlcə Prezident İlham Əliyev Füzuli-Hadrut avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Zəfər yolundan götürür və yeni inşa ediləcək Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yoluna birləşir. Uzunluğu 13 kilometr olan bu yol 4 hərəkət zolaqlı olacaq. Yolboyunca avtomobil körpüləri inşa ediləcək.

X X X

Dövlətimizin başçısı İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Xocavənd rayonuna yola düşdülər…

Prezident İlham Əliyev: Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən Xocavənd rayonuna gedirik.

X X X

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev Hadrut qəsəbəsində dövlət bayrağımızı qaldırdı və çıxış etdi.

Prezident İlham Əliyevin çıxışı:

- Hadrut qəsəbəsi oktyabrın 9-da işğaldan azad edildi. Hadrut qəsəbəsinin azad edilməsi çox uğurlu hərbi əməliyyat nəticəsində mümkün olmuşdur. İlk növbədə, ətraf dağlar götürüldü. Hadrutun ətrafında yerləşən yüksəkliklər Azərbaycan Ordusu tərəfindən götürüləndən sonra faktiki olaraq nəzarət Azərbaycan Ordusuna keçdi və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi artıq qaçılmaz idi. Deyə bilərəm ki, bütövlükdə 44 günlük müharibə zamanı mülki erməni əhali arasında itkilər kifayət qədər az idi. Ona görə ki, Azərbaycan Ordusu heç vaxt mülki əhaliyə qarşı müharibə aparmamışdır. Ermənilərdən fərqli olaraq, biz müharibə dövründə ancaq hərbi birləşmələrə qarşı müharibə aparmışıq, onları məğlub etmişik, onları torpaqlarımızdan qovmuşuq. O ki qaldı, mülki əhaliyə, Ermənistanın statistikasına görə, müharibə dövründə təqribən 40-a yaxın mülki şəxs həlak olmuşdur. Onların da böyük əksəriyyəti məhz hərbi əməliyyatlarda iştirak edən mülki şəxslər idi.

Hadrut qəsəbəsinin işğaldan azad edilməsi böyük əhəmiyyətə malik olan bir əməliyyat idi. Çünki Cəbrayıl rayonundan, Cəbrayıl şəhərindən sonra Hadrutun azad edilməsi hərbi əməliyyatlarımızın davam etdirilməsi üçün xüsusi əhəmiyyətə malik olan hadisə idi.

Onu da bildirməliyəm ki, Füzuli şəhəri Hadrutdan sonra azad edilmişdir - oktyabrın 17-də. Ermənistan ordusu bizi məhz digər istiqamətdə gözləyirdi. Ancaq müharibə qaydalarına əməl edərək, strateji planlaşdırmanı düzgün icra edərək biz Cəbrayıldan sonra Hadrutu, ondan sonra Füzulini işğaldan azad etdik.

Onu da deməliyəm ki, artıq Hadrut bizim əlimizdə olan zaman Ermənistan rəhbərliyi, rəsmi şəxslər və eyni zamanda, Ermənistanın dəyirmanına su tökən bəzi xarici jurnalistlər bəyan edirdilər ki, Hadrut ermənilərin əlindədir. Mən bu günə qədər başa düşə bilmirəm ki, Ermənistan rəhbərliyi nə üçün öz xalqını aldadırdı. Biz dəqiq bilirdik ki, Hadrut bizdədir. Biz bilirdik ki, artıq Ermənistan ordusu burada tamamilə məhv edilib və sağ qalan erməni hərbçilər buradan qorxaqcasına qaçıb dağlarda gizlənmişdilər. Hadrut tam bizdə idi. Ancaq bəzi xarici jurnalistlər bildirirdilər ki, guya Hadrut ermənilərin əlindədir.

Hadrutun azad edilməsindən sonra biz Şuşaya istiqamət götürdük. Şuşa əməliyyatının uğurlu keçirilməsi üçün məhz Hadrutu azad etmək önəmli idi. Yenə də düşmənin bizi gözləmədiyi istiqamətdən Şuşaya yaxınlaşdıq. Dağlardan, dərələrdən, sıldırım qayalardan keçərək, o qayaları dırmaşaraq biz Şuşanı işğalçılardan azad etdik. Ona görə Hadrut əməliyyatı dünyanın hərb elmində xüsusi yer tutacaq.

Bütövlükdə 44 günlük şanlı müharibəmiz, bizim Zəfərimiz bu gün dünyanın aparıcı ali məktəblərində öyrənilir və artıq hərbi ekspertlər, mütəxəssislər, hətta bir çox ölkələrin siyasətçiləri bizim müharibədən bəhs edərək bildirirlər ki, bu, XXI əsrin müharibəsidir. Azərbaycan müharibədə Zəfər çaldı, düşməni əzəli torpaqlarımızdan qovdu, tarixi ədaləti bərpa etdi. Hadrut qəsəbəsi keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun mərkəzi sayılırdı. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv olunandan sonra keçmiş vilayətin Martuni və Hadrut rayonları birləşdirildi və Xocavənd rayonu yaradıldı. Bu əraziyə qədim tarixi adı - Xocavənd adı qaytarılmışdır. Müharibə dövründə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun 50 faizdən çox hissəsi və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin Hadrut rayonunun 100 faiz ərazisi işğalçılardan azad edilmişdir. Bəziləri müharibənin yekunlarını şərh edərkən deyirlər ki, Azərbaycan yeddi rayonu azad edib, bu, belə deyil. Biz yeddi rayonu, Şuşa şəhərini, Suqovuşan qəsəbəsini, Talış qəsəbəsini, keçmiş Hadrut rayonunu, keçmiş Martuni rayonunun böyük hissəsini azad etmişik və tarixi ədaləti bərpa etmişik. Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərkən tarixi nailiyyətlərə imza atmışdır.

Biz xalqımızın yeni tarixini yazdıq, şanlı qəhrəmanlıq tarixini yazdıq və azad edilmiş torpaqlarda bu gün böyük quruculuq işləri aparılır, böyük infrastruktur layihələri icra edilir. Bu gün Bakıdan gələrkən, yenə də dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar. Məscidlərdə heyvan saxlayıblar. Bizim müqəddəs abidələrimizi təhqir ediblər. Azərbaycanlıların tikdirdikləri, - ermənilər orada qanunsuz yaşayıblar, - o evləri noyabrın 10-dan dekabrın 1-nə qədər yandırıblar, dağıdıblar, meşələri qırıblar. Su elektrik stansiyalarını dağıdıblar. Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür. Mən demişdim ki, Ermənistan rəhbərliyi bizə tarix versin, bizim torpaqlarımızdan nə vaxt çıxır və biz müharibəni dayandırmağa hazırıq, bunu da etdik. Bu gün buraya bu torpaqların sahibləri kimi qayıtmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün mən Müzəffər Ordumuzun Ali Baş Komandanı kimi Hadrut qəsəbəsində milli bayrağımızı qaldırdım. Bu bayraq burada əbədi dalğalanacaq. Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik. Xocavənd bizimdir, Qarabağ Azərbaycandır!

X X X

Sonra Prezident İlham Əliyev Hadrut-Cəbrayıl-Şükürbəyli avtomobil yolunun təməlini qoydu.

Bu yol başlanğıcını Hadrut yaşayış məntəqəsindən götürməklə və Cəbrayıl rayonundan keçməklə Şükürbəyli kəndində Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi avtomobil yoluna birləşir. Uzunluğu 43 kilometrdir. Dörd hərəkət zolaqlı bu yolboyunca avtomobil körpüləri tikiləcək.

X X X

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasında oldular.

Dövlətimizin başçısı dedi: Bu bina keçmiş Hadrut Rayon Partiya Komitəsinin binasıdır. Qanunsuz rejim burada özləri üçün administrasiya yaratmışdı. Bu bina Azərbaycan vəsaiti hesabına tikilmişdir və onu biz qaytarmışıq. Hadrut bizimdir!

Bu sözlər köhnə əlifba ilə yazılıb: "Kolxozların torpaqlardan əbədilik faydalanması üçün". Bu, 1939-cu ilə qədər yazılıb. 1939-cu ildə əlifbamızı dəyişdirdilər. Bu, tarixi sənəddir.

X X X

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Hünərli kəndindəki Alban məbədi ilə tanış olublar…

Prezident İlham Əliyev dedi:

X X X

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Tuğ kəndində oldular.

Prezident İlham Əliyev: Tuğ kəndinə gəlmişik. Tuğ kəndi qədim Azərbaycan kəndidir.

Birinci xanım Mehriban Əliyeva: Budur məktəbin binası?

Prezident İlham Əliyev: Ermənilərin dağıtdıqları Tuğ kəndinin məktəbi. Görün, nə günə qoyublar. Sonra da deyirdilər ki, Tuğ kəndi erməni kəndidir. Erməni kəndi olsaydı, bunu dağıdardılar? Bura qədim Azərbaycan torpağıdır. Tuğ kəndi həmişə Azərbaycan kəndi olub, bundan sonra da olacaq.

Tuğ kəndində azərbaycanlıların ermənilər tərəfindən dağıdılmış evləri. Buradan bütün dağıntılar yaxşı görsənir.

Təbii ki, Tuğ kəndinin sakinləri öz evlərini tanıyırlar. Əminəm ki, yaxın gələcəkdə Tuğun sakinləri öz doğma kəndlərinə qayıdacaqlar.

Görün, Azərbaycan necə də gözəldir. Qarabağ necə də gözəldir. Dağıdılmış bütün kəndləri, şəhərləri bərpa edəcəyik.

Dövlətimizin başçısı və xanımı Tuğda Alban məbədində oldular.

Prezident İlham Əliyev: Bunlar növbəti erməni saxtakarlığıdır. Sonradan gətirilmiş daşlardır. Bu məbədə heç bir aidiyyəti yoxdur.

Bura qədim Alban məbədidir. Bu məbəd də udi qardaşlarımıza qaytarılacaqdır. Ermənilər bunu da ermənləşdirmək istəyiblər, amma alınmayıb və alınmayacaq. Bundan sonra Azərbaycan dövləti bu Alban məbədini qoruyacaq.

X X X

Daha sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Azıx kəndinə yola düşdülər.

Dövlətimizin başçısı: Tuğ kəndindən çıxdıq, indi gedirik Azıx kəndinə. Azıx da qədim Azərbaycan kəndidir, qədim yaşayış yeridir. Buraların təbiəti də çox gözəldir.

Azıx kəndinə yaxınlaşırıq. Qarabağın gözəl mənzərəsi. Bura Azıx kəndinin ərazisidir.

Azıx mağarasına gedirik, hələ yolumuz uzaqdır.

Azıx mağarasının girişindəyik. Təxminən 800 pillə qalxmışıq. Yaxşı idman etmişik, fiziki formamızı göstərmişik. İndi girəcəyik Azıx mağarasının içinə. Bu mağaranı azərbaycanlı alim, arxeoloq Məmmədəli Hüseynov 1960-cı ildə aşkar etmişdir və ondan sonra burada tədqiqatlar aparılmışdır. Bu, dünyanın ən qədim insanının yaşayış yerlərindən biridir, Azərbaycan tarixinə məxsusdur, bizim tarixi sərvətimizdir. Ermənistan bu mağarada qanunsuz olaraq işlər aparmışdır, xaricdən qanunsuz olaraq alimlər gətizdirmişdir. Onlar bu mağaraya, bizim tarixi irsimizə böyük ziyan vurmuşlar. Onlar bu ziyanın hamısını ödəyəcəklər. Onları məcbur edəcəyik.

Azıx mağarasını azərbaycanlı alim aşkarlayıb. Azıx mağarası Azərbaycan ərazisində yerləşir. Bundan sonra azərbaycanlı alimlər və onların dəvəti ilə gələcək xarici alimlər burada qanuni yollarla tədqiqatlar aparacaqlar.

Buradan isə gözəl mənzərə açılır. Azıx kəndi, bax, oradadır. Bax, buradan daha yaxşı çəkmək olar. Biz bu zirvəni qət etmişik. Bütün zirvələri qət edəcəyik. Elə zirvə yoxdur ki, onu biz qət edə bilməyək. Gəlin, bir yerdə deyək: "Azıx Azərbaycandır!", "Qarabağ Azərbaycandır!".

XXX

AZƏRTAC xəbər verir ki,

...Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşada Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinə gəldilər.

Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma bu kompleksin bərpası layihəsi ilə bağlı məlumat verdi. Bu layihə Heydər Əliyev Fondu tərəfindən həyata keçiriləcək. Layihənin icrası zamanı məqbərənin əvvəlki vəziyyətinin bərpasına xüsusi diqqət yetiriləcək. 1992-ci ildə ermənilər Şuşanı işğal edərkən bu abidəni də vəhşicəsinə dağıdıblar…

Sonra dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Pənahəli xanın sarayının qalıqlarına baxdılar. Bu tikili Şuşa şəhərinin tarixi mərkəzində yerləşir və Qarabağ xanlığının banisi Pənahəli xanın iqamətgahı olmuş tarixi saray idi. Erməni vandalları işğal zamanı bu tarixi binanı da dağıdıblar…



Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Molla Pənah Vaqifin büstünün qoyulacağı əraziyə gəldilər.

Molla Pənah Vaqifin büstünün bərpası layihəsi də Heydər Əliyev Fondu tərəfindən icra olunacaq...

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Karvansaray tarix-memarlıq kompleksinə baxdılar.

Dövlətimizin başçısına burada görüləcək işlər nəticəsində mehmanxana müasir səviyyəyə çatdırılacaq və Şuşa şəhərinə səfər edəcək qonaqların rahatlığı üçün bütün şərait yaradılacaq.

Dövlətimizin başçısına və birinci xanıma Şuşa şəhərində tarixi-dini abidələrin bərpası ilə bağlı görülən işlər haqqında məlumat verildi...

Prezident İlham Əliyev, birinci xanım Mehriban və qızları Leyla Əliyeva Şuşa Xalça Muzeyində də oldular. Qarabağ xalçaçılıq sənəti ənənələrinin öyrənilməsi, qorunması və yaşadılması məqsədilə yaradılan bu muzey də işğal zamanı ciddi ziyan görüb.

Dövlətimizin başçısı, birinci xanım və Leyla Əliyeva Şuşada Park otelin yerləşəcəyi binaya da baxdılar. Yenidənqurmadan sonra otel qonaqlarını müasir səviyyədə qarşılaya biləcək…

Prezidentin Şuşa rayonunda görüləcək işlərlə bağlı məlumat verildi.

Şəhərdə erməni vəhşiliyi ilə üzüzə qalan tikililərdən biri də Şuşa Dövlət Rəsm Qalereyasının binasıdır.

Qalereya 1982-ci ildə yaradılıb və işğal dövrünədək - 1992-ci ilədək fəaliyyət göstərib…

Sonra Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva "Qarabağ" mehmanxanasında aparılacaq təmir-bərpa işləri ilə tanış oldular. Mehmanxana ötən əsrin 80-ci illərinin əvvəllərində inşa edilib. Bina baxımsızlıqdan tamamilə yararsız vəziyyətə düşüb. Burada xüsusi nümayəndəsi Aydın Kərimov dövlətimizin başçısına icra olunacaq layihələrlə bağlı məruzə etdi.

Prezident İlham Əliyev Şuşada görüləcək işlərlə əlaqədar tapşırıq və göstərişlərini verdi…

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Şuşa rayonunun Daşaltı kəndinə gəldilər...

X X X

Erməni qəsbkarlar tərəfindən 1992-ci ildə işğal olunan Daşaltı kəndi də hərtərəfli terrora məruz qalıb. Prezident İlham Əliyev kəndin bərpası ilə bağlı tapşırıqlarını verdi...

Rayon İcra Hakimiyyəti başçısının Novruz bayramı münasibətilə rayon sakinlərinə təbriki

Əziz salyanlılar!

Sizi Azərbaycan xalqının ən müqəddəs bayramı olan Novruz bayramı münasibətilə təbrik edir və hər birinizə işlərinizdə müvəffəqiyyətlər, möhkəm cansağlığı və yüksək bayram əhval-ruhiyyəsi arzulayıram.

Azərbaycan xalqının ən qədim maddi-mənəvi dəyərlərini özündə qoruyub saxlayan Novruz ümumxalq bayramı kimi, öz ənənələrini bu gün də saxlamaqdadır. Çərşənbələrdə və bayram günlərində keçirilən el şənlikləri, icra olunan mərasimlər sülhsevərliyə, həmrəyliyə, insanlar arasında mehribanlığa və digər bəşəri duyğulara xalqımızın nə qədər böyük önəm verdiyini bir daha əyani şəkildə nümayiş etdirir. Müxtəlif dövrlərdə olan təsirlərə baxmayaraq, bu bayram milli-mənəvi dəyərlərimizin əsl daşıyıcısı olmuşdur.

Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycan xalqının təkidli tələbi ilə 1993-cü ilin 15 iyununda siyasi hakimiyyətə qayıtdıqdan sonra Novruz respublikamızda rəsmi bayram statusu almış, dövlət səviyyəsində qeyd edilməyə başlamışdır. Artıq 28 ildir ki, Novruz bayramı el şənliyi, ümumxalq mahiyyəti daşıyır. Hazırda Novruzun ümumdünya qeyri-maddi, mədəni irs siyahısına daxil edilməsi qəlbimizi fərəh hissi ilə doldurur.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyev hər il Novruz bayramı ərəfəsində xalqımızı təbrik edir, bayram münasibətilə Bakıda keçirilən el şənliklərində iştirak edir. Novruz bayramı ərəfəsində ölkə başçımızın insanların sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına yönəldilmiş sərəncamları on minlərlə ailənin bayram ovqatını daha da artırmışdır. Xalqımız öz doğma Prezidentinin timsalında müstəqil ölkəmizin qüdrətini hiss edir, dövlət siyasətini daha da dəstəkləyir.

2019-cu ilin dekabrından bütün dünyanı vahiməyə salan COVID-19 infeksiyasına qarşı mübarizədə dövlətimiz tərəfindən vaxtında həyata keçirilən qabaqlayıcı və digər ən zəruri tədbirlər nəticəsində respublikamız dünyanın öncül ölkələrindən biri oldu.

Bu istiqamətdə rayonumuzda da ardıcıl, məqsədyönlü işlər görülür.

Keçən ilin 10 noyabr günü tariximizin ən şanlı, ən möhtəşəm günü olaraq xalqımızın yaddaşına əbədi olaraq həkk olundu. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuzun həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı Ermənistanın Baş nazirini "Kapitulyasiya Aktı"nı imzalamağa məcbur etdi. Beləliklə, 30 illik həsrətə son qoyuldu. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu.

Respublikamızın hər yerində olduğu kimi, qədim Muğan torpağı olan Salyanda da yüksək bayram əhval-ruhiyyəsi yaşanır.

Novruz bayramı və yazın gəlişi həm də abadlıq-quruculuq, yaşıllaşdırma, səliqə-sahman, təsərrüfat işlərinin daha da genişləndirilməsinin müjdəçisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində rayonumuzun sosial-iqtisadi inkişafı daha da yüksəlir, insanların rifah halı daha da yaxşılaşır.

Hörmətli salyanlılar!

Sizi bir daha bayram münasibətilə ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ümumxalq bayramı hər bir salyanlının ailəsinə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş etsin.

Novruz bayramınız mübarək!

Sevindik Hətəmov,
Salyan Rayon İcra Hakimiyyətinin başçısı.

Salyan bələdiyyəsinin şəhər sakinlərinə Novruz təbriki

Hörmətli salyanlılar!

Sizi müqəddəs Novruz bayramı münasibətilə təbrik edirik. Bu günlər xalqımız Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə, qüdrətli Silahlı Qüvvələrimizin rəşadətli qələbəsi hesabına ilk dəfədir ki, torpaqlarımızın işğalçılardan tam azad edilmiş şəraitində Novruz bayramını qarşılayır. Bu əziz günlərdə ərazi bütövlüyümüz uğrunda canlarını qurban vermiş şəhidlərimizin ruhu qarşısında baş əyərək Azərbaycan xalqına Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsində müstəsna xidmətləri olmuş Ümummilli Lider Heydər Əliyevi ehtiramla yad edirik.

Novruz xalqımızın tarixində ən qədim bir bayramdır. Bu günlərdə insanlar bir-birini təbrik edir, ailələrə cansağlığı və rifah arzulayırlar. Biz də insanlarımızın sevinclərinə qoşulur, hər kəsə cansağlığı və rifah dolu günlər arzulayırıq.

Novruzun bir adəti də təmizlik, səliqə-sahman, abadlıq işləri görməkdir. Öz ənənələrinə sadiq qalan Salyan bələdiyyəsi şəhərimizin küçə və parklarında abadlıq və yaşıllaşdırılmasında, infrastrukturun daha da yenilənməsində yaxından iştirak edir. Şəhərimizə gələn qonaqlar yeniliklərdən razı qaldıqlarını bildirirlər.

Salyan bələdiyyəsinin kollektivi də baharın, yazın gəlişinin müjdəsi olan Novruz bayramı münasibətilə hər bir salyanlını təbrik edir, onlara möhkəm cansağlığı, süfrələrinə bol ruzi-bərəkət arzulayır.

Novruz bayramınız mübarək!

Sərvəddin Cəfərov,
Salyan bələdiyyəsinin sədri.

Pandemiyaya qarşı mübarizədə vaksinasiya əvəzolunmazdır

Dünyanın görkəmli tibb mütəxəssisləri apardıqları çoxsaylı elmi tədqiqat və araşdırmaların, təcrübələrin nəticəsi olaraq belə qənaətə gəlmişlər ki, pandemiyaya qalib gəlmək üçün ən təsirli vasitə peyvəndləmə əməliyyatıdır. Elə bir müalicə metodu, dərman preparatı yoxdur ki, vaksinasiyanı əvəz edə bilsin. Respublikamızda pandemiya ilə bağlı son günlərin göstəriciləri narahatlıq doğurmaya bilməz. COVİD-19-a yoluxanların sayının 800-900-ü ötməsi müqabilində sağalananların sayı 2-3 dəfə aşağı olmuşdur. Ölkəmizdə dünyanı xeyli müddətdir ki, qorxu, təlaş, həyəcan içərisində saxlayan bu qorxunc xəstəliyə qarşı mübarizə tədbirləri ən yüksək səviyyədə davam etdirilir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin dünyada olan nüfuzu, hörməti sayəsində Azərbaycan vaxtında və kifayət qədər vaksin əldə edən azsaylı dövlətlərdən biridir. Dövlət başçımız bir çox mötəbər kürsülərdən vaksinlərin hər bir ölkə tərəfindən əlçatanlığına nail olunması üçün ədalət bölgüsünə ciddi riayət etməyin zəruri olduğunu dəfələrlə bəyan etmişdir. Bu, Azərbaycan Prezidentinin öz fəaliyyətində milli çərçivədə qalmayıb bəşəri duyğularla yaşadığını göstərir. Respublikamızda bu ilin yanvar ayının 18-dən vaksinasiya işi müvəffəqiyyətlə həyata keçirilməkdədir. Hal-hazırda növbəti mərhələdə təhsil işçiləri vaksinasiya olunurlar.

Rayonumuzda da gözəgörünməz qorxunc xəstəliklə mübarizədə digər tədbirlərlə yanaşı, peyvəndləmə əməliyyatı da uğurla davam etdirilir. Rayonumuzun təhsil işçiləri bu həyati vacib tədbirin əhəmiyyətini dərindən dərk edərək vaksinasiya məsələsinə məsuliyyətlə yanaşırlar. Salyan şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin pedaqoji kollektivi də bu ümumxalq işinə fəal qoşulmuşlar. Məktəb-liseyin direktoru Arzu Daşpoladova, dərs -hissə müdirləri Elvira Mehdiyeva, Nuranə Əsgərova, ingilis dili müəllimi Səbirə Əhmədova, fizika müəllimi Məlahət Qəhrəmanova, tarix müəllimi Taleh Ağayev, coğrafiya müəllimi Nəzir Gülməmmədov vurğuladılar ki, böyük həvəslə vaksinasiya olunduq. Özümüzü çox yaxşı, gümrah hiss edirik. Əgər normal həyatımıza, çal-çağırlı günlərimizə qayıtmaq istəyiriksə, hər birimiz bu məsələyə böyük məsuliyyətlə yanaşmalı, hamılıqla vaksinasiya olunmalıyıq. Onu da unutmaq olmaz ki, vaksinasiya olunduqdan sonra da qaydalara-tibbi maskadan düzgün istifadəyə, sosial məsafəni gözləməyə, sanitar-gigiyena qaydalarına ciddi riayət etməyə davam etməliyik. Hörmətli Prezidentimizin də dediyi kimi, biz birlikdə güclüyük!

Əzizağa Məmmədli

Xalqı xoş gələcəyə aparan partiya

Yeni Azərbaycan Partiyasının VII qurultayı əsas siyasi hadisə olaraq xalqın yaddaşında qaldı. Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl xətlərlə həkk olunmuş tarixi qələbədən sonra növbəti qurultayın çağırılması ölkəmizin ictimai-siyasi tarixində olduqca əlamətdar hadisədir. Qurultayın gündəliyinə partiyanın yeni Nizamnaməsinin təsdiq edilməsi, İdarə Heyətinin, Təftiş komissiyasının, partiyanın Veteranlar Şurasının seçilməsi, bir sıra siyasi partiyaların Yeni Azərbaycan Partiyasına qoşulması kimi məsələlər daxil idi. Qurultayın bəzəyi isə möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin geniş, dərin məzmunlu, parlaq çıxışı oldu. Müzəffər Ali Baş Komandanımızın yüksək sərkərdəlik bacarığı, şanlı ordumuzun cəsarəti, qətiyyəti, qəhrəmanlığı sayəsində əldə olunmuş möhtəşəm qələbədən sonra qurultayın çağırılması zərurətdən doğurdu. Ölkədə yaranan yeni reallıq, partiyanın fəaliyyətinin müasir dövrün tələblərinə uyğun olaraq tənzimlənməsinin vacibliyi və digər amillər bunu labüd edirdi. 29 il bundan öncə, Ulu Öndər Heydər Əliyev tərəfindən yaradılan Yeni Azərbaycan Partiyası digər siyasi partiyalardan fərqli olaraq xalqa, dövlətə müxalif olmayıb, o dövrdə yarıtmaz siyasət yürütmələri üzündən xalqı uçuruma aparanlara, səriştəsiz fəaliyyətləri ilə dövlətçiliyimizə zərbə vuran qüvvələrə müxalifətdə idi.

2003-cü ildən hakimiyyətə gələn və Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən İlham Əliyevin çoxşaxəli, hərtərəfli mükəmməl fəaliyyəti ilə Yeni Azərbaycan Partiyasının aparıcı siyasi təşkilat olaraq daha da güclənməsi onun yüksək liderlik keyfiyyətlərinə malik olduğunu bir daha nümayiş etdirdi.

Ötən 17 il ərzində Azərbaycanın bütün sahələrdə dinamik inkişafı, ilk növbədə, cənab Prezidentin dahiyanə uzaqgörənliyi, gecə-gündüz yorulmaz fəaliyyəti, heyrətamiz fədakarlığı, qətiyyəti, qarşıya qoyulan məsələlərin həllində prinsipial mövqeyi nəticəsində mümkün olmuşdur. Qurultaydakı çıxışında möhtərəm Prezidentimiz bir çox dövlətlərin və beynəlxalq təşkilatların təzyiqləri altında qələbənin heç də asan başa gəlmədiyini, bunun üçün yüksək iradənin, əzmkarlığın vacib olduğunu bildirib: " Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsii lazım deyil. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq tam qələbə lazım idi".

Qurultaydakı parlaq çıxışı ilə müxtəlif məsələlərin dərin təhlilini verən dövlət başçısı partiyanın yeni strategiyasının əsas mahiyyətini açıb göstərməklə yanaşı, həm də böyük qələbəni təhrif edənlərə, qələbənin dairəsini kiçiltməyə çalışanlara, qələbəmizə kölgə salmaq niyyətinə düşənlərə obyektiv, ədalətli münasibətini bildirib:" Müharibə ilə bağlı bəzi yerlərdə gedən müzakirələrdən görürəm deyirlər ki, biz yeddi rayonu azad etmişik. Elə deyil. Biz, eyni zamanda, Şuşanı azad etmişik, eyni zamanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Martuni, indiki Xocavənd rayonunun 50 faizdən çox hissəsini azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Mardakert, indiki Ağdərə rayonunun böyük hissəsini azad etmişik, o cümlədən Suqovuşan qəsəbəsini. Biz təkcə yeddi rayonu azad etməmişik. Daha çox ərazini azad etmişik və bu gün yaratdığımız reallıq artıq dünya tərəfindən qəbul edilir. Bir daha demək istəyirəm ki, bu reallığı biz yaratmışıq - güc hesabına, iradə hesabına. Birlik hesabına. Müharibənin nəticələrindən biri də, əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir".

YAP-ın VII qurultayında 6 siyasi partiyanın hakim-siyasi partiya ilə birləşməsi YAP-ın nüfuzunun artmasının, xalqın milli maraqlarının istənilən şəraitdə hər şeydən üstün tutulmasının, eyni zamanda, partiyanın sədri İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya olan yüksək etimadın əyani göstəricisidir. Əlbəttə, yeni partiyaların YAP-a birləşməsi təşkilatın güclənməsinə, onun fəaliyyətinin daha da güclənməsinə səbəb olmuşdur.

VII qurultayda cənab Prezident bildirmişdir ki, bütün bunlar nəzərə alınaraq təşkilatın yeni proqramı hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir.

Son 17 il ərzində YAP-ın sədri İlham Əliyevin uzaqgörənliyi, prinsipial mövqeyi, yenilməz iradəsi sayəsində siyasi sahədə də böyük uğurlara imza atılmışdır. Hal-hazırda Azərbaycan Qoşulmama hərəkatının sədridir. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasına rəhbərlik edən dövlətlərdən biri olub. Avropa Şurasında, ATƏT-də, Avropa İttifaqında müstəqil mövqeyi olan barmaqla sayılası ölkələrdən biri hesab olunur.

Xalqımız tam əmindir ki, YAP-ın sədri İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da ölkəmizdə bütün sahələrdə uzunmüddətli, dayanıqlı, davamlı inkişafın reallaşdırılması istiqamətində ardıcıl, məqsədyönlü tədbirlər uğurla davam etdiriləcəkdir.

Əli bəy Hüseynzadənin xatirəsi anılmışdır

Türk dünyasının mütəfəkkir oğlu Əli bəy Hüseynzadənin xatirəsi milli məfkurənin yaradıcılarından biri kimi həmişə xatırlanmaqdadır. Onun dünyaya gəldiyi Salyan torpağında isə bu tədbirlər daha da yaddaqalan olur. Çünki qədirbilən xalqımız öz böyük oğluna şəhər meydanlarının birində tunc abidə ucaltmış, adına Tarix-Diyarşünaslıq Muzeyi təsis etmiş, baş küçələrdən birinə onun adı verilmişdir. Türk dünyasının böyük oğlu Əli bəy Hüseynzadə 1864-cü il fevralın 24-də Salyanda Kür çayı sahilində dünyaya gəlmiş, 17 mart 1940-cı ildə Türkiyənin İstanbul şəhərində vəfat edərək Qaraca Əhməd qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əli bəy Hüseynzadənin anadan olmasının 150 illik yubileyinin təntənəli surətdə qeyd edilməsi barədə sərəncam imzalamış və onun yubileyi respublikamızda böyük mədəni siyasi hadisə kimi qeyd edilmişdir.

Böyük mütəfəkkirin anım günündə Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, RİH başçısı yanında şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, təhsil, səhiyyə, mədəniyyət işçiləri, ictimaiyyətin nümayəndələri Əli bəy Hüseynzadənin abidəsi önünə gəlmiş, xatirəsini anmış və bura gül-çiçək dəstələri düzərək ehtiramlarını bildirmişlər.

Azərbaycanın Milli Qəhrəmanı Nazim Babayevin
1995-ci ilin mart hadisələrində şəhid olmasından 26 il keçir

Ömrü qısa olsa da, şərəfli oldu

Mart ayının 17-də Milli Qəhrəman Nazim Babayevin doğum günü rayon ictimaiyyətinin iştirakı ilə onun Salyan şəhərində ucaldılmış büstünün ziyarət olunması ilə qeyd edilmişdir. Həmin gün Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Milli Qəhrəmanın anası Laçın ana, hüquq-mühafizə orqanlarının rəhbərləri, dövlət idarələrində çalışan qulluqçular, müəssisə və təşkilatların, ictimaiyyətin nümayəndələri şəhərin mərkəzindəki Şəhidlər Xatirə Kompleksinə gələrək Milli Qəhrəmanın abidəsini ziyarət etmiş, onun büstü önünə gül-çiçək dəstələri düzmüşlər.

Keçən əsrin 90-cı illərinin əvvəllərində özünün dövlət müstəqilliyini qazanan Azərbaycan bir sıra xarici və daxili qüvvələrin təsiri altında siyasi təzyiqlərə məruz qalırdı. Müəyyən düşmən qüvvələr tərəfindən qızışdırılan silahlı dəstələr sui-qəsdlər törədir, dövlət çevrilişlərinə cəhd edirdilər.

1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlişindən sonra ölkədə hüquqi dövlətin formalaşmasına real şərait yarandı. Lakin buna baxmayaraq, yenə də bəzi qüvvələr ölkədə xaos, özbaşınalıq yaratmağa çalışırdılar. 1995-ci ilin mart ayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Danimarkanın paytaxtı Kopenhagen şəhərində beynəlxalq sammitdə olduğu vaxtda xüsusi təyinatlı polis dəstəsinin komandiri Rövşən Cavadovun başçılığı ilə silahlı dəstə 8-ci kilometr qəsəbəsindəki hərbi hissədə dislokasiya olaraq Azərbaycan dövlətçiliyinə qarşı silahlı qarşıdurma yaratdı. Lakin həmin dövrdə Azərbaycan Ordusu kifayət qədər mütəşəkkil qüvvəyə malik idi. Milli Ordumuzun qətiyyəti, iradəsi sayəsində dövlət çevrilişinə cəhd edən bu qüvvələr zərərsizləşdirildi. Ölkəmizin müstəqilliyi uğrunda qəhrəmanlıqla həlak olan Milli Ordunun döyüşçüləri sırasında Nazim Abbas oğlu Babayev də var idi. İki il ermənilərlə döyüşlərdə iştirak edən Nazim Babayev təəssüflər olsun ki, öz həmvətənlərinin atdığı güllədən həyatını itirdi.

Azərbaycanın Milli Qəhrəmanı Nazim Babayev 1975-ci il fevralın 5-də özünün vətənpərvər, igid, qəhrəman oğulları ilə öyünən, qürur hissi keçirən, görkəmli elm, mədəniyyət və incəsənət xadimləri ilə tanınan, Darülmöminlər diyarı Salyan rayonunun Aydıngün (indiki Yeni Uluxanlı) kəndində anadan olmuşdur. Atası Abbas kişi Əli Bayramlı (indiki Şirvan) şəhərinin neft mədənlərində və başqa təşkilatlarında işləmişdir. Nazim erkən yaşlarından atasını itirmiş, anasının himayəsində böyümüşdür.

1992-ci ildə kənd orta məktəbini bitirən Nazim işləmək, ailəsinə kömək etmək, anasının işini bir qədər yüngülləşdirmək istəyirdi. Lakin həmin illərdə erməni faşistlərinin Azərbaycan torpaqlarına təcavüzü baş vermişdi. Ona görə də 18 yaşı tamam olduqda Vətənin azadlığı uğrunda gedən döyüşlərdə yaxından iştirak etmək üçün hərbi xidmətə yollandı. Qısa müddətdə keçdiyi təlimlərdən sonra Nazim Babayev Qarabağ uğrunda gedən döyüşlərdə xüsusi fəallıq nümayiş etdirirdi.

1995-ci ilin mart ayında xüsusi təyinatlı polis dəstəsinin qeyri-qanuni silahlıları dövlət çevrilişinə cəhd edəndə Nazimin də xidmət etdiyi hissə dövlət çevrilişinin qarşısının alınmasında iştirak edirdi. Bu əməliyyatlarda cəsurluğu ilə seçilən igid həmvətənimiz qəhrəmanlıqla həlak oldu.

Füzuli, Tərtər bölgələrində igidliklə döyüşən, düşmən qarşısında mətanətlə dayanan Nazim Babayev 1995-ci ilin mart hadisələrində şəhidlik zirvəsinə yüksələrək ölməzlik qazandı. Qəhrəman eloğlumuz Salyan rayonunun Qaraçala qəsəbəsindəki Şəhidlər xiyabanında dəfn edildi.

Ulu Öndər Heydər Əliyevin 4 aprel 1995-ci il tarixli fərmanı ilə Nazim Abbas oğlu Babayev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Dövlətimiz tərəfindən Nazim Babayevin adı əbədiləşdirilmişdir. Belə ki, Salyan şəhərindəki küçələrdən birinə onun adı verilmiş, Salyanda Şəhidlər kompleksində büstü qoyulmuşdur.

Nazimin Vətən naminə şəhid olmasından artıq 26 il keçir. Lakin bundan sonra neçə onillər, neçə yüzillər keçsə belə, onun gələcək nəsillər üçün örnək olacaq ömür səhifələri dönə-dönə vərəqlənəcək, işıqlı, parlaq xatirəsi həmişə yad ediləcəkdir. Bu gün vətənpərvər eloğlumuzun ruhu şaddır. Çünki onun torpaqlarımızın azad edilməsi, doğma Azərbaycanımızın ərazi bütövlüyünün təmin olunması kimi müqəddəs arzusunu Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı ordumuz gerçəkləşdirmişdir.

Torpaqlar analiz olunur

Salyan Aqrokimya laboratoriyası yüksək texnoloji avadanlıqlarla təchiz olunub. Burada mütəxəssislər innovativ metodlarla fəaliyyət göstərir. Salyan Regional Aqrokimya laboratoriyasına 3100 torpaq nümunəsinin gətirilməsi nəzərdə tutulub. Hazırda Salyan rayonu üzrə 60 fermerdən 147, Neftçala rayonu üzrə 143 fermerdən 396, Hacıqabul rayonu üzrə isə 54 fermerdən 558 torpaq nümunəsi alınıb. Qarşıdakı günlərdə bu rəqəmlər daha da artacaq.

Şöbə müdiri Gülnar Səmədova deyir ki, torpaqlar yerindəcə sahələrdən götürülərək laboratoriyaya gətirilir. Analizlərin nəticəsinə görə, fermerlərə tövsiyələr verilir. Bu tövsiyələr əsasında onlar gələcəkdə həm kənd təsərrüfatı məhsullarının məhsuldarlığını artırmış olur, həm də fermerlərin özünün maddi rifahının yüksəlməsi üçün şərait yaranır.

Regional aqrokimya laboratoriyaları aqrar sahənin inkişafı üçün çox böyük önəm daşıyır. Belə ki, aqrokimyəvi tədqiqatların nəticəsində qabaqlayıcı tədbirlərin aparılması mümkün olur, fermer gübrələmə normalarını düzgün seçir, sonda keyfiyyətli bol məhsul əldə edir. Laboratoriyada götürülmüş torpaq nümunələrində fosforun, azotun, kaliumun və digər mikroelementlərin, həmçinin turşuluğun, qələviliyin, duzluluğun, elektrik keçiriciliyinin, homusun, əhəngliliyin təyini prosesi aparılır.

Fermer Malik Novruzov deyir ki, indi mini müasir laboratoriyamız var. Torpaqlarımızı gətiririk, analiz olunur. Laboratoriyadan keçir. Torpaqlarımıza hansı gübrələr, hansı minerallar verilməlidirsə, bizə məsləhət verirlər.

Hazırda Salyan Aqrokimya laboratoriyasında torpaq analizi prosesi tam sürətlə davam etdirilir.

Qeyd edək ki, aqrokimya laboratoriyalarının mövcud olması nəticəsində respublikada aqrar sektor daha geniş profillə fəaliyyət göstərir. Belə ki, əkinə yararlı torpaqlardan düzgün istifadə olunması keyfiyyətli məhsul artımına zəmin yaradır, eyni zamanda, əkinə yararsız torpaqlar müayinə olunaraq yararlı vəziyyətə gətirilir.



Vətən sənə oğul dedi

"Sön mənzilə kimi başımı dik tutaraq getdim"

Bəlkə buna görə əzəmətlisən -
Nəyin var vermisən əsirgəmədən?!
Sən bir ana kimi səxavətlisən,
Anam Azərbaycan, vətən, can vətən!
Əliağa Kürçaylı

44 gün ərzində müqəddəs yurd yerlərimizi düşməndən azad edərək otuz illik torpaq həsrətinə, nisgilinə son qoyan rəşadətli ordumuz xeyli müddətdir ki, xalqımıza qələbənin sonsuz sevinc və fərəh hisslərini yaşatmaqdadır. Bu şanlı qələbənin qazanılmasında xidməti olan mərd, qəhrəman Azərbaycan oğullarından biri Sübhan Rahim oğlu Cəbrayılov 1983-cü il oktyabrın 19-da Salyan rayonunun Marışlı kəndində anadan olub. 2001-ci ildə doğulduğu kəndin orta məktəbini bitirib. Elə həmin il ordu sıralarına çağırılıb. Uşaqlıqdan idmanın boks növü ilə ciddi şəkildə məşğul olan Sübhan güclü, bacarıqlı idmançı kimi tanınırdı. Qazandığı nailiyyətlərə görə, fəxri fərmanlarla təltif edilmişdi. Məhz yüksək fiziki keyfiyyətləri əsas götürülərək Xüsusi Təyinatlı Dəstəyə qəbul olunmuşdu. Türkiyədə keçirilən bir çox təlimlərdə fəallığı ilə seçilən, verilən tapşırıqları dəqiq və vaxtında icra edən həmyerlimiz 2002-ci ildən Xüsusi Təyinatlı Dəstədə baş gizir rütbəsində xidmətini davam etdirmişdir. 2016-cı ilin Aprel döyüşlərində igidliyi, şücaəti ilə fərqlənən baş gizir bir neçə medalla təltif edilmişdi.

Vətən müharibəsi başlananda Füzulinin, Cəbrayılın, Hadrutun və Qubadlının alınması uğrunda gedən və xalqımız üçün haqq, ədalət, erməni faşistləri üçün isə işğalçı müharibə olan savaşda cəsur həmvətənimiz qəhrəmanlıqla şəhid olaraq ölümsüzlük zirvəsinə yüksəlir. Üç bacının qardaşı olan qəhrəmanımızdan bir oğul və bir qız övladı Vətənə əmanət qaldı.

Ölkə başçımızın müvafiq sərəncamları ilə Sübhan Rahim oğlu Cəbrayılov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülmüş, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Bacısı Kəmalə xanımın dediklərindən:

-Sübhan mənə təkcə qardaş deyildi. Mənə sirdaş idi, arxadayaq idi. Onu yenilməz, əyilməz bir dağ kimi bilirdim özümə. O, həddindən artıq həyatsevər, nikbin, gülərüz bir igid idi. Elə ki görərdi bir az kədərliyəm, o dəqiqə özünün zarafatları ilə məni güldürməyə, dərdin, kədərin əlindən almağa çalışardı. Mənə vəsiyyət etmişdi ki, bu, müharibədir, bacı, hər şey ola bilər. Sağ da qala bilərəm, şəhid də ola bilərəm. Əgər şəhid olsam, özünü sındırma, başını dik tut. Çünki sən Vətən naminə canından keçən bir qəhrəmanın bacısı olacaqsan. Mən də onun vəsiyyətini yerinə yetirərək son mənzilə kimi başımı dik tutaraq getdim.

Üzündə-gözündə kədərin, qüssənin aydın sezildiyi Ləzifə ana üzücü fasilədən sonra söhbətə başladı:

-Övlad dağını Allah heç bir anaya, ataya göstərməsin, çox ağır dərddir. Bütün ailəmizin ümid çırağı, yaşamaq həvəsi olan pəhləvan cüssəli, nər biləkli Sübhan balamın yoxluğuna hələ də inana bilmirəm. Elə bilirəm ki, nə vaxtsa, qapını açıb içəri girəcək, boynumu qucaqlayıb deyəcək ki, ay ana, darıxma, görürsən ki, sağ-salamat qayıtmışam...

Hiss etdim ki, oğul itkisinin çəkilməsi mümkün olmayan ağırlığından boğazında düyünlənmiş qəhər anaya fikrini tamamlamağa mane olur. Ona görə də ürəyi yaralı ananın kədərini bir qədər azaltmaq, qubar bağlamış dərdini bir qədər əritmək üçün söhbətə körpü salmağa çalışdım:"Əziz ana, övlad itkisinin, ümumiyyətlə, doğmasını itirməyin necə dözülməz olduğunu yaxşı bilirəm. Tanrı dərgahına ucalan oğlunuzun ölümü adi ölüm deyil. O, şəhid olub. Bu, elə bir zirvədir ki, ora hər kəs yetişə bilmir. Zaman keçdikcə, daha aydın hiss edəcəksiniz ki, necə qəhrəman, necə fəxr ediləsi, qürur duyulası bir oğulun anasısınız. Və bu fərəh hissi sizi yaşadacaq, ömrünüzə ömür qatacaq".

Bilmədim sözlərim anaya necə təsir etdi, ancaq üz-gözünü çulğamış kədər buludunun qismən dağıldığını, yerində məğrurluğun nişanələrinin yarandığını hiss etdim.

Bəli, sizin oğlunuz bu məğrurluğu təkcə sizə, yaxınlarınıza deyil, hər birimizə yaşatdı. Bu yaşantılara görə, əziz şəhidim, sən millətimizin sevimlisi, doğması oldun. Bu, dəyəri ölçüyəgəlməz yaşantılara rəğmən, xalqımız səni heç vaxt unutmayacaq. Bu gün başıuca, alnıaçıq, vüqarla gəzdiyinə görə, sənə daim minnətdar olacaq qədirbilən xalqım.

Əziz şəhidim, rahat uyu, hamımıza doğma olan ana torpağın isti ağuşunda!

"Anacan, ağlama ki, oğlun rahat uyusun"

Vətən müharibəsində qazanılan şanlı qələbə gənclərimizin vətənpərvərliyini, mübarizliyini, yüksək döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Bu qələbə göstərdi ki, Odlar Yurdunun mərd oğulları torpaqlarımızın mənfur düşmənin əsarəti altında qalmasını heç vaxt qəbul edə bilməz. Bu zəfər həm də dövlət-xalq-iqtidar birliyinin təntənəsi idi.

Rəşadətli ordumuzun tərkibində haqq savaşına atılan cəsur, qorxmaz vətən oğullarından biri Sabir Hikmət oğlu Salahov 1999-cu il oktyabrın 15-də Salyan şəhərində dünyaya göz açıb. 2016-cı ildə 2 saylı tam orta məktəbi bitirib. 2017-ci il oktyabrın 2-də Vətənə borcunu yerinə yetirmək üçün hərbi xidmətə gedib. Ağcabədidə xidmət keçən gənc 2019-cu il aprelin 2-də ordudan tərxis olunub.

2020 -ci il sentyabrın 27-də II Qarabağ müharibəsi başlanan gündən müddətdən artıq hərbi qulluqçu olaraq kiçik çavuş rütbəsində könüllü şəkildə torpaqlarımızın azadlığı, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda gedən döyüşlərə qatılıb. Füzulinin, Xocavəndin, Hadrutun erməni işğalından xilas olunması naminə gedən haqq savaşında cəsurluğu, qorxmazlığı ilə həm komandirlərinin, həm də silahdaşlarının dərin rəğbətini qazanıb. Oktyabrın 3-də şiddətli döyüşlərin birində qəhrəmanlıqla həlak olaraq şəhidlik deyilən ali məqama yetişib. Oktyabrın 6 -da rayonun Şəhidlər xiyabanında dəfn edilib. Subay idi.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Sərəncamı ilə Vətən qeyrətli, igid həmyerlimiz "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Söhbətimizin gedişində kövrələn, gözlərində yaş gilələnən Hikmət kişi bildirdi ki, Sabir çox tərbiyəli. mədəni uşaq idi. Ailənin, qohumların, dostlarının, məhəllənin sevimlisi, istəklisi idi. Həmişə deyərdi ki, ata, bircə böyüsəydim, torpaqlarımızı ermənilərin murdar ayaqlarının tapdaqlarından təmizləyərdim. Ən böyük arzusu Şuşada bayrağımızı dalğalandırmaq idi. Millətimizin başını uca edənlərin sırasında mənim də oğlumun adı olduğuna görə, bir şəhid atası olaraq qürurluyam. Fəxr edirəm ki, oğlum alçaq düşmənin qabağından qaçmayıb, daim irəli gedib.

Bir az sonra şəhidin anası Sevgül xanım da söhbətə qoşulur:

-Övlad itkisi dözülməz bir şeydir. Bunu hər ana, hər ata təsdiq edə bilər. Sabir deyirdi ki, ay ana. Mən müqəddəs savaşa atılmışam. Bu yolda öldü var, döndü yox. Biz mütləq torpaqlarımızı azad etməliyik. Bu işi gələcək nəsillərə saxlamamalıyıq. Anacan, əgər bu yoda naməd düşmənin gülləsindən həyatım qırılsa, şəhid olmağımla fəxr edəcəksiniz. Əgər şəhid olsam, bu, heç də ömrümün sonu demək deyil. O zaman heç vaxt ağlama ki, oğlun doğma torpağın altında rahat yata bilsin.

Rahat yat, rahat uyu, əziz şəhidimiz! Sinəsini Vətən önündə sipər edən, yurdumuzun mərd oğlu, sən ölməmisən, əməlinlə hər bir azərbaycanlının qəlbində əbədi məskən qurmusan. Tanrının sevimli bəndələrinin cərgəsində layiqli yerini tutan, igid həmvətənimiz, sən daimisən, sən əbədisən, sən 50 milyonluq Azərbaycan xalqının fəxrisən.

Şəhidin ad günü qeyd edildi

2020-ci ilin sonlarına yaxın Azərbaycanın qəhrəmanlıqlarla dolu tarixi yeni parlaq səhifə ilə zənginləşdi. 44 gün davam edən Vətən savaşında rəşadətli ordumuz işğalçı Ermənistanı döyüş meydanında məğlub edərək, mənfur düşməni rəzil vəziyyətə saldı. Bununla da işğala son qoyuldu, dövlətimizin ərazi bütövlüyü bərpa edildi.

Torpaqlarımızın azadlığı naminə canını, qanını əsirgəməyərək şəhidlik məqamına ucalan igid həmyerlilərimizdən biri İnqilab Tofiq oğlu Qədirbəyli 1995-ci il martın 10-da Salyan şəhərində anadan olub. 2012-ci ildə 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyi bitirib. Elə həmin il Azərbaycan Dəniz Akademiyasının menecment fakültəsinə daxil olub və 2016-cı ildə akademiyanın məzunu olub. 2016-cı ildə ordu sıralarına çağırılıb və 2017-ci ildə ordudan tərxis olunub. Ölkə başçımızın qismən səfərbərliklə bağlı Sərəncamı ilə 2020-ci il sentyabrın 21-də yenidən orduya qayıdıb.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün bərpası naminə döyüşlərə qatılan vətənpərvər həmyerlimiz Füzulinin, Qubadlının, Cəbrayılın, Hadrutun azadlığı uğrunda gedən haqq savaşında igidliyi, şücaəti ilə seçilib. Noyabrın 9-da Kapitulyasiya Aktının imzalanmasına bir gün qalmış qəhrəmanlıqla həlak olaraq şəhidlik zirvəsinə ucalıb. Noyabrın 11-də Salyan Rayonunun Şəhidlər Xiyabanında dəfn edilib. Onu da ürəkağrısı ilə vurğulamaq istəyirəm ki, şəhidimizin cənazəsi Salyana, onun doğma ocağına gətiriləndə sevdiyi, ülfət, əhd-peyman bağladığı və onunla akademiyada bir qrupda oxuyan qız da Bakıdan Salyana gəlibmiş. İgid həmvətənimizin azadlığı uğrunda can verdiyi Qarabağ torpağından olan bu qız hönkürə-hönkürə, gözlərindən axan yaş seli yanaqlarını islada-islada könül verdiyi istəklisini son mənzilə qədər yola salıb. Beləcə, bir qızın saf sevgisi, ülvi məhəbbəti həmdəmi ilə birgə dəfn olundu.

Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

Dövlətimiz tərəfindən İnqilab Qədirbəylinin xatirəsi əbədiləşdirilib. Dünyaya göz açdığı Salyanda küçələrdən biri onun adını daşıyır.

Ad günündə-martın 10-da şəhidimizin ailə üzvləri, yaxınları, dostları, rayon icra hakimiyyətinin nümayəndələri Şəhidlər xiyabanına gələrək onun əziz xatirəsini böyük hörmət və ehtiramla yad etmiş, məzarı önünə gül-çiçək dəstələri düzmüşlər.

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

Ölümü ölümsüzləşdirdi

Şəhid Vəlizadə Anar Afət oğlu 3 İyul 1994-cü ildə Salyan rayonunun Cəngan kəndində dünyaya gəlib. İkinci Qarabağ müharibəsinin ilk günlərindən etibarən, Yaşmada 052 nömrəli qrupun tərkibinə seçilib və bu qrup nəzdində baş çavuş olaraq Qarabağa yollanıb. Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə yuxarı kürək nahiyəsindən qəlpə yaraları alır və Füzuli rayon xəstəxanasına göndərilir. Lakin Anar kürəyindəki iki qəlpə yarasından yalnız birinin çıxarılması üçün əməliyyata razılıq verir. Digər qəlpə bədənində qaldığı halda xəstəxanadan qaçır. Qəlpə sol qolunun sərbəst hərəkətinə mane olduğu üçün qolu boynundan dəstək alacağı şəkildə sarğıda qalaraq yenidən döyüşə qatılır və təkəlli düşmənə qarşı döyüşür. Bir neçə gün sonra Füzuli uğrunda gedən döyüşlərdə yenidən ayağından güllə yarası alır. Füzuli Rayon Xəstəxanasına göndərilir, həkimlər 2 ay müalicə dövrü təyin etsələr də, Anar yenidən xəstəxanadan qaçır və döyüşə qatılır. Şuşa şəhəri uğrunda gedən döyüşlərdə aktiv şəkildə iştirak edir. Bu ərəfədə ondan xəbər ala bilməyən ailəsinə və yaxınlarına cəbhə bölgəsindən onun yenidən xəstəxanada olduğu bildirilir. Ailə üzvləri Anarın son günə qədər xəstəxanada olduğunu düşünərək ondan xəbər gözləyirlər. Daha sonra onu axtarmaq üçün Füzuli rayonuna yollanırlar. Uzun çəkən axtarışdan sonra yalnız noyabrın 12-də qardaşı onun nəşini tapa bilir və elə bu tarixdə doğulduğu yerdə- Salyan rayonunun Cəngan kəndində torpağa tapşırılır.

Vəlizadə Anarın 2 övladı Vətənə əmanət qaldı. Müharibə dövründə dünyaya gələn qızı Fatiməni sadəcə şəkillərdə görə bildi. Oğlu isə 1 yaşındadır. Ölümündən sonra əsgər yoldaşlarının xatirələrindən bəlli olur ki, Anar cəsur, qorxmaz bir döyüşçü olub. Ölümün gözünə həmişə dik baxıb. Vətən torpaqları düşmən işğalından azad edildikcə, daim irəli can atıb. Şuşa kimi bir qalanın alınmasında tarixi qəhrəmanlıqlar göstərib.

26 yaşında şəhidlik zirvəsinə ucalan Anar Vəlizadənin qəhrəmanlığı xalqımızın qan yaddaşında əbədi qalacaq.

O, yüksək zirvəni qəhrəmanlıqla fəth etdi

Nəcəfov İlkin Misir oğlu 17 noyabr 1989-cu ildə Salyan rayonunun Şikarlı kəndində anadan olmuşdur. 1996-cı ildə Şəkərli kənd orta məktəbində 1-ci sinfə gedib. 2005-ci ildə şəhid Salman Cəfərov adına Yenikənd kənd tam orta məktəbində təhsilini davam etdirmişdir. 2007-ci ildə orta məktəbi bitirdikdən sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olmuşdur.

2011-2012-ci illərdə leytenant rütbəsi ilə zabitləri təkmilləşdirmə kursunu uğurla bitirmiş və Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə 5 il xidmət göstərmişdir.

2016-cı ildə şanlı "Aprel döyüşləri" zamanı Ağdamın Süsənli kəndinin ətrafında gedən hərbi əməliyyatda iştirak etmişdir. 2016-cı il 26 iyun Silahlı Qüvvələrin yaranmasının 98-ci ildönümü

münasibəti ilə döyüş və ictimai-siyasi hazırlıqda, nizam-intizamda əldə etdiyi yüksək nailiyyətlərə görə, fəxri fərmanla təltif olunmuşdur.

2018-cil il iyunun 26-da Azərbaycan ordusunun "100 illik yubiley" və "Qüsursuz xidmətinə görə, 3-cü dərəcəli" medallarla təltif olunmuşdur.

2020-ci il sentyabr ayının 27-də xidmət etdiyi hərbi hissədən cəbhəyə yollanmış və Füzuli istiqamətində gedən düyüşlərdə əsl qəhrəmanlıq göstərmişdir. Düşmənin bir çox hərbi qulluqçusunu, eləcə də hərbi texnikasını məhv etmişdir. Daha sonra Hadrut istiqamətində gedən döyüşlərdə yaralanmasına baxmayaraq, yaralı əsgərini döyüş meydanından çıxararkən qəhrəmancasına şəhidlik zirvəsinə ucalmışdır.

Vətən naminə şəhidlik məqamına yetişənlər isə həm Tanrının, həm də bəndənin əzizi, sevimlisi olur. Mənalı, ibrətamiz ömür yolları ilə belə igid, cəsur həmvətənlərimiz heç vaxt unudulmur, daim minnətdarlıq hissi ilə yad olunurlar.

Şəhid ruhunu şadlandıran qələbə

Şəhidlik məqamına, şəhidlik zirvəsinə yüksələn İlham Bayram oğlu Abdullayev 1975 -ci il martın 28-də Salyan rayonunun Pambıqkənd kəndində anadan olmuşdu. İlham çağırış yaşına çatanda torpaqlarımızın müdafiəsində dayanmaq üçün böyük həvəslə hərbi xidmətə yola düşmüşdü. Hərbi texnikanın sirlərinə dərindən, mükəmməl şəkildə yiyələnmişdi.

1994-cü ildə Azərbaycanla Ermənistan arasında "Atəşkəs Müqaviləsi"nin bağlanmasına baxmayaraq, xain, riyakar düşmən iyrənc, xəyanətkar əməllərindən əl çəkmir, müqavilənin şərtlərinə əməl etməyərək tez-tez atəşkəsi pozurdu. Onların bu namərd hərəkətləri cavabsız qalmırdı. Milli Ordumuzun igid əsgərlərinin cavab atəşi ilə mənfur düşmən susdurulurdu. İşğalçılıq xisləti xalqımıza məlum olan erməni faşistlərinə layiqli cavab verən mərd oğulların sırasında İlham da var idi. 1995-ci il aprelin 7-də ermənilər İlhamın xidmət keçdiyi hərbi hissədə növbəti dəfə atəşi pozdular. Bu zaman düşmən güllәsi ürəyi Vətən sevgisi ilə döyünən, qəlbində arzuları aşıb-daşan qorxmaz həmyerlimizi yaxaladı.

Bununla da həyatdan doyunca kam almamış daha bir igid eloğlumuz 20 yaşında ikən dünyasını dəyişdi. Lakin bu, sadəcə olaraq dünyadan köçmək deyildi. Bu, şəhidlik idi. Hər zaman xalqımız tərəfindən xatırlanacaq, yada salınacaq bir məqam idi.

Digər şəhidlərimiz kimi, İlham Abdullayevin də ruhu şaddır. Erməni faşistlərinin hərbi təxribatına Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi altında şanlı ordumuz qətiyyətlə cavab verərək hər bir azərbaycanlının intizarla gözlədiyi torpaq həsrətinə biryolluq son qoydu. Şəhidlərimizin də, qazilərimizin də arzusu, istəyi elə bu idi.

Ağlama, ay ana, ağlama daha

Əzablı yollardan keçdim könüllü,
Hər ağrı-acını içdim könüllü,
Vətən torpağına qovuşmaq üçün
Şəhidlik yolunu seçdim könüllü,
Ağlama, ay ana, ağlama daha.

Ruhum səmadadır sönməzlər kimi,
Yurda sevgisindən dönməzlər kimi,
Əlçatmaz zirvədə, Tanrı yanında
Mən qərar tutmuşam ölməzlər kimi,
Ağlama, ay ana, ağlama daha.

Sən məni axtarma, dumanda, çəndə,
Ana, ölməmişəm, diriyəm mən də,
Əqidə yolunda. məslək yolunda
Şəhid olanların biriyəm mən də,
Ağlama, ay ana, ağlama daha.

Gəl məni bağışla, bağışla, ana,
Qayıda bilmədim sənin yanına,
Sən məni arzula, sən məni istə,
Şirin yuxularda gələrəm yenə,
Ağlama, ay ana, ağlama daha.

Dönə bilməsəm də uzaq səfərdən,
Geyinmə əyninə libas kədərdən,
Torpaq yoğrulmasa şəhid qanıyla,
Azalar qüvvəsi, düşər təpərdən,
Ağlama, ay ana, ağlama daha.

Vaxt gəldi, açıldı açılmaz düyün,
Sevincə qərq oldu yurdum büsbütün,
Doğma Qarabağım azaddır daha,
Oğlunun ruhu da şadlanır bu gün,
Ağlama, ay ana, ağlama daha.

Materialları hazırladı
Əzizağa Məmmədli.

"Ata, bu, son doğum günümdür"

Şəhadətə yüksələn qəhrəmanın həyat hekayəsi

44 günlük Vətən müharibəsi xalqımızın qeyrətli oğulları üçün əsl sınaq savaşı, eyni zamanda, qəhrəmanlıq salnaməsi oldu. Minlərlə vətənpərvər azərbaycanlı ilk gündən ordu sıralarına könüllü yazılaraq, cəbhəyə yollandılar, ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda ağır döyüşlərə atıldılar. Belə vətənpərvər igidlərimizdən biri də dəfələrlə qəhrəmanlıq göstərərək şəhadətə yüksəlmiş 19 yaşlı Ayaz Kərimovdur.

Ayaz Azər oğlu Kərimov 2002-ci il fevralın 12-də Salyan rayonunun Çadırlı kəndində doğulub. Orta təhsilini Kolanı kənd tam orta məktəbində başa vurub. 2020-ci ilin aprelində həqiqi hərbi xidmətə çağırılıb. 27 sentyabr 2020-ci ildə başlanan Vətən müharibəsində xidmət etdiyi "N" sayı hərbi hissədən döyüş bölgəsinə yollanıb.

İlk döyüş yolu Ağdərə istiqamətindən başlayıb. Ayaz Kərimov cəsur topçu kimi, düşmənin başına od yağdırıb. O, silahdaşları ilə birlikdə düşmənin xeyli canlı qüvvəsini və zirehli texnikasını məhv edib. Oktyabrın 14-ə Talış kəndi uğrunda gedən hərbi əməliyyat Ayaz Kərimovun son döyüşü olub.

Azər Kərimovun oğlu ilə son telefon danışığı Ayazın şəhidlik zirvəsinə ucalmasından bir neçə gün əvvəl baş tutub.

"Şəhid olmasından 4 gün əvvəl telefonla danışdıq. Dedi ki, ata, bu, son danışığımızdır. Dedim ki, gəlirəm yanına. Dedi gəlmə, məni görməyəcəksən".

Atasının sözlərinə görə, Ayaz yaralansa da, cəbhə xəttindən geri çəkilməyib. Düşmənin minaatan mərmisi yaralı döyüşçümüzün həyatına son qoyub.

"Əsgərliyə gedəndə demişdi ki, mən qayıtmayacağam. Hətta keçən il doğum günü tortunu kəsəndə dedi, ata, bu, mənim son ad günüm olacaq. Elə bil ürəyinə dammışdı onun", -Azər Kərimov deyir.

Oktyabrın 15-də Ayazın üçrəngli bayrağa bükülmüş nəşi Çadırlı kəndinə gətirilərək torpağa tapşırılıb. Ayaz Kərimov "Vətən uğrunda" medalı ilə (ölümündən sonra) təltif olunub.

İllər keçsə də, qalib ordumuzun qalib əsgəri 19 yaşında qalacaq. Xalqımızın qan yaddaşına hopmaqla daim xatırlanacaq, anılacaq.

Novruz, xoş gəlirsən yurdumuza

Novruz bayramı xalqımızın ən doğma, əziz, müqəddəs bayramlarından biridir. Novruz baharın gəlişi, təbiətin canlanması, torpağın oyanması ilə bağlı olan bir bayramdır. Novruz bayramı sadəcə şadlıq, sevinc, səadət bayramı olmamış, tariximizin ən çətin anlarında insanların ürəyində özünə yer eləmiş, həyatına daxil olmuş, onların yaşamaq həvəsini, inam hissini gücləndirmişdir. Novruzun insanlar arasında birlik və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə diqqət və qayğı göstərmələri baxımından əhəmiyyəti çox böyükdür. Xalqımızın tarixi yaddaşından süzülüb gələn bu gözəl bayram keçmişimizi və gələcəyimizi bir-biri ilə bağlayır. Bu gün Novruzun ilk dəfə keçirildiyi tarixi söyləmək mümkün deyildir. Lakin onu deyə bilərik ki, bu bayramın şərəfinə ulu babalarımıza Novruz adı verilmiş və bu bayram xalqın ən ülvi duyğularının sülh, dostluq, birlik, mərhəmət hisslərini özündə birləşdirir. Ayrı-ayrı dövrlərdə Novruza qadağa qoyulsa da, xalq arasında bu bayram təntənə ilə qeyd olunmuşdur.

2009-cu ildə Heydər Əliyev Fondunun Prezidenti, UNESCO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Novruz bayramı və aşıq sənəti UNESCO-nun dünya xalqlarının qorunan qeyri-maddi, mədəni irs siyahısına daxil edilmişdir. Sevindirici haldır ki, BMT-nin Baş Məclisi martın 21-ni Beynəlxalq Novruz Günü elan etmişdir.

Dünyanın şimal yarımkürəsində yaşayan əksər xalqlar bu bayramı yazın gəlişi ilə əlaqədar keçirirlər. Uzun müddət qışın soyuğundan, çətinliyindən əziyyət çəkən xalqlar yazın gəlişini gözləyirlər və bu bayramı təntənə ilə, sevinc ilə, ruh yüksəkliyi ilə qarşılayırlar.

Azərbaycanda Novruz bayramı xüsusi təmtəraqla, müxtəlif oyunların, tamaşa və nəğmələrin müşayiəti ilə keçirilir. "Cıdır tamaşaları", zorxana tamaşaları", "Daşqaldırma", "Qılıncoynatma", "Kosa-kosa", "Aşıq-aşıq" və s. oyunlar Novruz bayramına xüsusi təravət verməklə, onu daha da rövnəqləndirir, cazibədar edir. Qeyd edək ki, bu oyunların içərisində ən çox yayılanı "Kosa-kosa" oyunudur. Bayram günlərində cavanların və uşaqların ən çox sevdiyi "Kosa-kosa" oyununun digər oyunlardan fərqli, özünəməxsus cəhətləri vardır. Bu oyunu həyata keçirərkən cavanlar bir yerə toplaşarlar. Bir nəfər zirək və hazırcavab oğlana tərsinə kürk geyindirirlər. Üzünü möhkəm unlayır, başına bir uzun motal papaq qoyur, ayaqlarının altına ayaq formasında ağac sancırlar. Boynuna zınqırov salır, paltarının altından qarnına yastıq bağlayır, bir çömçəni qırmızı bəzəyib əlinə verir, qapı-qapı gəzdirib oynadaraq pay toplayırlar. Kosanı gəzdirənlər bu mahnını oxuyurlar:

A Kosa-kosa, gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

A uyruğu, uyruğu,
Saqqalı it quyruğu.
Kosa bir oyun eylər,
Quzunu qoyun eylər,
Yığar bayram xonçası,
Hər yerdə düyün eylər.

Həmişə deyərdik ki, gün o gün olsun, gələn Novruz bayramlarını işğaldan azad edilmiş yurd yerlərimizdə qeyd edək. İndi isə Müzəffər Ali Baş Komandan, qüdrətli sərkərdə İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun rəşadəti sayəsində düşmən əsarətindən azad edilmiş torpaqlarımızda bərpa işlərini tamamladıqdan sonra ən yüksək səviyyədə, böyük təntənə ilə keçirəcəyimiz günü səbirsizliklə gözləyirik. O gün isə çox da uzaqda deyil.

Novruzun mənası "Yeni gün" deməkdir. Arzumuz odur ki, Novruz həyatımıza təzəlik, gözəllik, sevinc səadət gətirsin! Xalqımız daim şadxürrəm yaşasın! Müqəddəs bayramımız hər birimizə uğur gətirsin!

Aşıq Ələsgər-200

Aşıq sənətinin peyğəmbəri



Məlum olduğu kimi, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən, qüdrətli el sənətkarı Aşıq Ələsgərin anadan olmasının 200 illiyinin respublikamızda yüksək səviyyədə keçirilməsi qərara alınmışdır. Azərbaycan aşıq sənəti, milli aşıq poeziyası tarixində layiqli yeri olan böyük sənətkarlardan biri Aşıq Ələsgər qədim Göyçə mahalının Ağkilsə kəndində 1821-ci il Novruz bayramı günündə anadan olmuşdu. Atası Alməmməd işgüzar, zəhmətsevər, halallığı sevən bir kişi idi. O, el içində şair kimi də məşhur idi. Qeyd edək ki, Alməmməd kişinin "İnsan", "Görmədim", "Eylər-eylər" rədifli şeirlərini aşıqlarımız bu gün də ustadnamə kimi oxuyurlar.

Ələsgərin anası Pərizad Kalvayi Abbas adlı hörmətli, nüfuzlu bir kişinin qızı idi. Ailədə Ələsgər, Salah, Xəlil, Məhəmməd adlı dörd oğlan, Fatma və Qızxanım adında iki qız övladı var idi. Ələsgər ailənin böyük uşağı idi. Alməmməd kişi oğlunun sazasözə, aşıqlıq sənətinə olan meylini hiss edib onu Aşıq Alının yanına şəyird qoyur. Ustad aşığın yanında beş il şəyirdlik edən Ələsgər fitri istedadı və çalışqanlığı sayəsində bu sənətin incəliklərinə dərindən yiyələnir və müstəqil olaraq aşıqlıq eləməyə başladı. Az bir zaman müddətində səsi-sorağı elə-obaya yayıldı. Ələsgər dövrünün ziyalları, din xadimləri ilə ünsiyyət bağlayar, onlara tarixi, bədii və dini kitabları oxutdurub, dinləməyi çox sevərdi. Dini mövzuda olan mübahisələr zamanı din xadimləri onunla razılaşmaq məcburiyyətində qalardılar. Aşıq Ələsgərin bədahətən söz demək istedadı hamını heyran edərdi. Bu şeirləri yadında saxlar, sonradan şəyirdlərinə öyrədərdi.

Söz ustadının "Gərəkdi" rədifli qoşmasında əsl aşığın hansı keyfiyyətlərə malik olması aydın təsvir olunur:

Aşıq olub diyar-diyar gəzənin
Əvvəl, başda pür kamalı gərəkdi.
Oturub-durmaqla ədəbin bilə,
Mərifət elmində dolu gərəkdi.

Böyük sənətkarın möcüzələrindən biri də onun söhbət elədiyi adamların ürəklərindən keçənləri bilməsi idi. Ona görə də deyişmə zamanı heç kəsin qarşısında aciz qalmazdı. Aşığın maraq oyadan cəhətlərindən biri onun baş verəcək hadisələri öncədən yuxuda görməsi idi. Dədə Qorqud kimi, Aşıq Ələsgərin alqışı da, qarğışı da çox güclü təsirə malik idi. Dəli Alıya həsr etdiyi müxəmməsindən aşağıdakı misralara diqqət yetirək:

Hər məclisdə duaçıyam,
Günbəgün ucalır səsim.
Barilahim, irəhm eylə,
Yerə düşməsin nəfəsim,
Oğul ver iki qardaşa,
İki qurban da özüm kəsim.
Dəli Alının dostlarından olan bu iki qardaş-Əsəd və Molla Qasım Goranboy rayonunun Qaramusalı kəndində yaşayıblar. Qüdrətli el sənətkarının bu duasından sonra Tanrı onlara bir neçə oğul bəxş etmiş, aşıq da sözünə əməl edərək iki qurban kəsmişdi.

Aşıq Ələsgər insan gözəlliyini, öncə, onun mənəvi aləmində, iç dünyasında axtarır. Zahiri gözəllik ilə mənəvi saflığı vəhdətdə görür. İki sevən qəlbin bir-birini tamamlamamasını faciə hesab edir:

İki könül bir-birini tutmasa,
Alan da yazıqdı, gələn də yazıq.

Ustad aşığın yaradıcılığında halallıqla bağlı şeirlər üstünlük təşkil edir. O, cəmiyyətdə baş verən pisliklərin mayasında halallığın gözlənilməməsini qeyd etməklə, insanları cah-calala, var-dövlətə uymamağa, səxavətli olmağa çağırır:

Haqq gərəkdi düz qiymət olsun,
Qiyməti verməyə mərifət olsun,
İnsanda insanlıq, səxavət olsun,
Neylərəm ki, cah-calalı varıymış.

Ustad sənətkar bir-birinə qırılmaz sevgi, məhəbbət telləri ilə bağlanan və dünya dağılsa belə, heç vaxt ayrılmayacaqlarına and içən sevən qəlbləri ayırmağa cəhd edənləri lənətləyir:

Sidq ilə tutmuşam, çağırram səni,
Xeybərin qalasın alan, ya Əli!
Hər kim ayırarsa yarı yarından,
Elə tacü-taxtın talan, ya Əli.

Aşıq Ələsgər aşıq şeirinin, demək olar ki, bütün janrlarında - qoşma, gəraylı, təcnis, dodaqdəyməzlər, dildönməzlər janrlarında yaratmış, dövrünün görkəmli aşıqları ilə deyişmələrdə olmuşdur. Poeziyanın çətin janrlarından sayılan dodaqdəyməz janrında yaratdığı şeir nümunələri Dədə Ələsgərin necə qüdrətli sənətkar olduğunu bir daha təsdiq edir:

Qışda dağlar ağ geyinər, yaz-qara,
Sağ dəstinlə ağ kağıza yaz qara.
Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çata-çat.

Aşıq poeziyasının zirvəsində qərar tutmuş və bu sənətin peyğəmbəri sayılan Aşıq Ələsgər qüdrətli, nəhəng bir sənətkar olaraq əsrlərlə yaşayacaqdır.

Qayıt məhəbbətim

Eşqin yolu pərən-pərən,
Başqa yolla gedəmmirəm,
Axı, özüm gələmmirəm,
Qayıt, məhəbbətim, qayıt.

Ayrılığa dözəmmirəm,
Göz yaşımı siləmmirəm,
Başqasını görəmmirəm,
Qayıt, məhəbbətim, qayıt.

Həsrət oldu, hicran oldu,
Eşqimizi viran qoydu,
Ayrılığın məni yordu,
Qayıt, məhəbbətim, qayıt.

Maygül Ələkbərova
Arbatan kəndi.

Müəllim

Ey sevimli müəllim,
Sən nurlu bir mələksən.
Həm mehriban, həm həlim,
Min arzu, min diləksən.

Bilik, təhsil yolunda
Sən olmusan təməlim.
Bağlıdır xoş adınla
Hər bir işim, əməlim.

Sübhanə Qurbanova
Salyan şəhər 2 saylı
tam orta məktəbin şagirdi.

Azərbaycan qəhrəmanı

Tanrı verib bizlərə pay
Azərbaycan torpağını.
Düşmənlər də bilir onun
Bərəkətli olmağını.

Şəhid qanıyla yoğruldu
Doğma, əziz torpağımız.
Dalğalanır zirvələrdə
O müqəddəs bayrağımız.

Xilas etdi Qarabağı,
Nurlu, cənnət bir məkanı.
Təmizlədi yağılardan
Azərbaycan qəhrəmanı!

Xocalı

Vətənimin hüdudları
Bir zamanlar geniş imiş.
Qədim, ulu millətimiz
Düşməninə baş əyməmiş.
Belə qanlı faciəni
Görməmişdir bəşər, cahan.
Qan içində üzür hər yan,
Xain düşmən vermir aman,
İnsan deyil, vəhşi heyvan.
Üstümüzə hücum etmiş,
Dünya belə qan görməmiş.
Körpələrin, uşaqların,
Qadınların, qocaların,
Əliyalın insanların
Mənliyini alçaldaraq
Şəhid etmiş mənfur düşmən.
Necə qəddar, cəllad imiş.
Alındı qisası günahsızların-
Qalmadı yerdə nahaq qan,
Zəfər çaldı Azərbaycan!

Aslan Fərəczadə
2 saylı tam orta məktəbin şagirdi.

Canım-ciyərim mənim

(şəhid Zeynal Zülfüqarlının dilindən)

Nə taqətim qalıb, nə də ki, dözüm,
Sönübdür ocağım, qalıbdır közüm,
Sən gedən o gündən gülməyir üzüm,
Can, bala, ay canım-ciyərim mənim.

Balaca Zeynalın tək qaldı artıq,
Bütün ümidlərim azaldı artıq.
O nurlu gözlərim qaraldı artıq.
Can, bala, ay canım-ciyərim mənim.

Deyirdim sən idin duzum, çörəyim,
Böyüyüb olarsan arxam, köməyim,
Beynim dumanlanır, yanır ürəyim,
Can, bala, ay canım-ciyərim mənim.

Sənin nisgilini qəlbimə saldım,
Üzün görmədiyin körpənlə qaldım,
Oğlunun əlini əlimə aldım,
Can, bala, ay canım- ciyərim mənim.

Qəlbimdə elə bil bir məşəl yanır,
Zeynalım, ürəyim sənsiz dayanır,
Səni görmək üçün ruhum yol alır,
Can, bala, ay canım-ciyərim mənim.

Sənsən əzəl, Qarabağ

Qələbə sevincini
Ordu bəxş etdi bizə.
Tarixi zəfərimiz
Fərəhdir qəlbimizə.
İyirmi yeddi ildə
Düşmən qırdı, dağıtdı.
Neçə-neçə günahsız
Şəhid qanı axıtdı.

Gözü yaşlı analar
Şəhidlərə "can" dedi.
Hər döyüşçü, hər əsgər
"Can Azərbaycan" dedi.

Namərd, mənfur düşmənə
Aman, macal olmadı.
Qəhrəman şəhidlərin
Qanı yerdə qalmadı.

Artıq bizimdir Şuşa,
Doğma, gözəl Qarabağ!
Hər yer cənnət olsa da,
Sənsən əzəl, Qarabağ!

Qələbə paradında
Sevindi el, hər ana.
Alqış Milli Orduma,
Ali Baş Komandana!

Fatimə Əsədova
Kürqaraqaşlı kənd
tam orta məktəbinin şagirdi.

Vətən sevgisi

Doğma, müqəddəsdir Vətən torpağı,
Hamıya əzizdir gülü, yarpağı,
Var xarı bülbülü, çiçəkli bağı,
Dil açır qəlblərdə Vətən sevgisi!

Qarabağ elimiz, Şuşa qalamız,
O gözəl bulaqlar, meşə-talamız,
Ən uca zirvədə şəhid balamız,
Dil açır qəlblərdə Vətən sevgisi!

Ali Baş Komandan, sevimli rəhbər.
Polad sinəsini eylədi sipər,
Qüdrətli ordumuz qazandı zəfər,
Dil açır qəlblərdə Vətən sevgisi!

Xoşbəxtdir bu elin oğulu, qızı,
Halaldır neməti, çörəyi, duzu,
Üçrəngli bayraqda ayı-ulduzu,
Dil açır qəlblərdə Vətən sevgisi!

Leyla Mecidova
7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin şagirdi.

Novruz bayramında yanğın təhlükəsizliyi tədbirləri

Yurdumuza bahar gəlir - həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət-ənənələrimizə uyğun olaraq baharın gəlişini - Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. İqtisadiyyatının gündən-günə qüdrətləndiyi müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndləri bu gün biri-birindən rəngarəng bayram tədbirləri ilə Novruzu qeyd etməyə hazırlaşır.

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, bütün bayramlar, o cümlədən Novruz şənlikləri də ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, Novruz bayramında əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın kökü yanğın üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticəsində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərində və ya həyətyanı sahələrə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əyləncə və şənliklərdə azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdır.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və s.yerlərə yapışdırmaq olmaz.

Bayram tədbirləri zamanı müəssisə və təşkilatlar, təhsil ocaqları, xüsusən də internat tipli və digər məktəblər yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər.

Milli bayramımızı - Novruzu acı sonluqla başa vurmamaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.

Fövqəladə Hallar Nazirliyinin
Dövlət Yanğın Nəzarəti
Xidmətinin Muğan Regional
Dövlət Yanğın Nəzarəti İdarəsi.

Bu il Novruz bayramında 9 gün ardıcıl iş olmayacaq

Nazirlər Kabinetinin "2021-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" qərarına əsasən, 2021-ci il martın 20, 21, 22, 23, 24-ü Novruz bayramı günləri müəyyən edilib.

Bu il 20-21 mart həftənin şənbə və bazar günlərinə təsadüf etdiyindən, Əmək Məcəlləsinə əsasən iş və istirahət günlərinin yerləri dəyişdiriləcək, martın 25-i və 26-ı da qeyri-iş günü olacaq. Eyni zamanda 27 və 28 mart da həftənin şənbə və bazar günlərinə təsadüf edir.

Beləliklə, Novruz bayramı ilə əlaqədar 9 gün ardıcıl (20, 21, 22, 23, 24, 25, 26, 27 və 28 mart) iş olmayacaq.

Etibarsızdır

Salyan rayon Yuxarı Noxudlu kənd sakini Məmmədov Vaqif Miralı oğluna məxsus Arbatan Sudan İstifadə Edənlər birliyinə aid olan Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Salyan Rayon Aqrar İslahat Komissiyasının 30 iyul 1998-ci il 09 saylı qərarı ilə Salyan rayonu Arbatan kənd sakini Hüseynov Süleyman Kərəm oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-131, kod-80903018) itdiyi üçün etibarsız sayılır.

Bakı-Astara magistral yolunda Salyan rayon sakini mərhum Tağıyev Telman Fərman oğluna məxsus "Uğur" kiçik müəssisəsinə aid 31 mart 1999-cu il tarixdə 42 saylı Qeydiyyat vəsiqəsi və texniki pasportla qeydiyyata alınmış Qeydiyyat vəsiqəsi və texniki pasport itdiyi üçün etibarsız sayılır.

Əziz oxucular!

2021-ci il üçün "Qələbə" qəzetinə abunə kampaniyası davam edir

Rüblük abunə 15, altı aylıq abunə qiyməti 30 manatdır

Abunə yazılışı idarə və müəssisələrlə qəzetin təqdim etdiyi elektron-qaimə əsasında, fiziki şəxslərlə fərdi qaydada hesaba köçürməklə aparılır.

Məlumat üçün 255-29-26 və 255-23-68 telefonlarına zəng edə bilərsiniz.

"Qələbə" qəzetinin vaxtında çatdırılması ilə bağlı hər hansı problemlə qarşılaşarkən Salyan poçtamtına: 255-07-15 nömrəli telefonla müraciət etməyiniz xahiş olunur.

"Qələbə" qəzeti.

Baş redaktor: Rüstəm Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 340 Sifariş: 7-8
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143 VÖEN:7000080071

Məsul növbətçi: T.B.Nəsirli